# Prezident seçkiləri ölkədə aparılan islahatların davamıdır

**2024-cü il Azərbaycan tarixində Zəfər seçkilərinin keçirilməsi ilə yadda qalacaq. İlk dəfə olaraq seçkilər ərazi bütövlüyü və suverenliyi tam təmin olunmuş bütün ərazilərimizdə keçiriləcək.**



Azərbaycanın 2020-ci ildə Vətən müharibəsindəki qələbəsindən sonra regionda yeni reallıqlar yaranıb. Bu geosiyasi reallıqlar fonunda seçkilərin keçirilməsi zərurəti yaranmışdı. Prezident İlham Əliyev növbədənkənar prezident seçkilərinin keçirilməsi ilə bağlı sərəncam imzalamışdı.

Seçkilərlə bağlı artıq işlərə başlanılıb. Artıq ilk dəfə olaraq işğaldan azad olunmuş ərazilərdə seçki məntəqələri yaradılıb. Qeyd edək ki, Qarabağ və Şərqi Zəngəzurda 26 seçki məntəqəsi yaradılıb.

Xatırladaq ki, xalqımız ilk dəfə olaraq həm prezident, həm parlament, həm də bələdiyyə seçkilərində qalib seçicilər kimi iştirak edəcəklər.

Növbədənkənar prezident seçkiləri ilə bağlı "Azərbaycan" qəzetinə danışan Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov qeyd edib ki, növbəti il fevralın 7-nə təyin olunmuş prezident seçkilərinin keçirilməsi ölkədə aparılan islahatların davamıdır və bu seçki siyasi sistemin daha da möhkəmlənməsini təmin edəcək.

Deputat bildirib ki, respublikada fəaliyyət göstərən siyasi partiyaların namizədləri artıq məlumdur: "Bu da onu göstərir ki, ölkəmizdə qarşılıqlı hörmət üzərində qurulan sağlam əməkdaşlıq mühiti mövcuddur. Sirr deyil ki, məhz Prezident İlham Əliyevin fəaliyyəti sayəsində müasir Azərbaycan dünyada uğurlu islahatların aparıldığı ölkə kimi tanınır, qəbul olunur".

R.Mahmudov vurğulayıb ki, bu baxımdan fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkiləri zəruridir. Bu seçkiləri qeyd olunduğu kimi, Zəfər seçkiləri də adlandırmaq olar. Çünki müstəqillik tariximizdə ilk dəfə olaraq seçkilər suverenliyini tam bərpa etmiş ölkəmizin bütün ərazilərində keçiriləcək.

Azərbaycanda azad siyasi fəaliyyətin mövcudluğunu qeyd edən komitə sədrinin müavini əlavə edib ki, eyni zamanda seçkilərin ədalətli keçirilməsi üçün hər cür şərait var: "Əminəm ki, seçicilər 7 fevralda xalqa böyük zəfər bəxş edən namizədi seçəcək, buna heç kimin şübhəsi yoxdur".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 22 dekabr, № 280.- S.6.